

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 145 (23.557)

2 sentyabr 2020-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Əhalinin səmərəli məşğulluğu təmin edilib

***Muxtar respublikada iqtisadi və sosial sahələrdə həyata keçirilən mühüm tədbirlər, yeni istehsal və xidmət sahələrinin istifadəyə verilməsi, iş yerlərinin açılması əhalinin səmərəli məşğulluğunu təmin etmiş, həyat səviyyəsini daha da yaxşılaşdırmışdır.***

Əhali artımına uyğun olaraq iqtisadi və sosial sahələrin kompleks inkişafı məqsədilə 2005-2018-ci illəri əhatə edən üç Dövlət proqramının, əsasən, yerli istehsalın inkişafını təmin edən digər belə dövlət sənədlərinin uğurlu icrası həyata keçirilən tədbirlərin effektivliyini daha da artırmışdır. "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda və digər belə dövlət sənədlərində qarşıya qoyulmuş vəzifələrin icrası isə görülən işlərin davamlılığına stimul yaratmışdır.





İqtisadiyyatın çoxşaxəli inkişafının təmin edilməsi, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması tədbirləri demoqrafik proseslərə də müsbət təsir göstərmiş, əhalinin sayı 2005-ci ilin sonu ilə müqayisədə 20,5 faiz artaraq 1 iyul 2020-ci il tarixə 460,6 min nəfər təşkil etmişdir.

Muxtar respublikada 2007-2010-cu illərdə məşğulluq strategiyasının həyata keçirilməsi, 2014-2015-ci və 2016-2020-ci illərdə əhalinin məşğulluğunun artırılması üzrə Dövlət proqramlarının icrası da işaxtaran vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə, səmərəli məşğulluğun və özünüməşğulluğun təmin edilməsinə, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə geniş imkanlar yaratmışdır. Belə ki, təkcə 2020-ci ilin ilk yarımilində əmək bazarının tələblərinə uyğun olaraq Naxçıvan Regional Peşə Tədris Mərkəzində təşkil olunmuş peşə hazırlığı və ixtisasartırma kurslarına 120 nəfər cəlb edilmişdir. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyindəki peşə-ixtisas təhsili müəssisələrində 849 gənc müxtəlif peşələrə yiyələnmişdir.

2020-ci ilin yanvar-iyun aylarında muxtar respublikada dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 69 layihə üzrə istehsal və xidmət obyektləri yaradılmış, 624 nəfər ailə üzvü olan 133 aztəminatlı ailənin özünüməşğulluğu təmin edilmişdir.

Sahibkarlara bu dövr ərzində 18 milyon 879 min 100 manat kredit verilmişdir ki, bunun da 11 milyon 336 min 100 manatı yeni istehsal sahələrinin yaradılmasına və ya genişləndirilməsinə, 7 milyon 543 min manatı isə fərdi sahibkarlığın inkişafına sərf olunmuşdur.

2020-ci ilin ilk yarımilində 638, ümumilikdə, 2005-ci ildən 1 iyul 2020-ci il tarixədək muxtar respublikada 69 min 895 yeni iş yeri açılmışdır. İş yerlərinin 44,5 faizi Naxçıvan şəhərində, 14,7 faizi Şərur, 12,4 faizi Babək, 7,1 faizi Ordubad, 8,4 faizi Culfa, 5,6 faizi Kəngərli, 4,8 faizi Şahbuz, 2,5 faizi Sədərək rayonlarında qeydə alınmışdır.

Aparılmış məqsədyönlü tədbirlərin nəticəsi olaraq muxtar respublikada məşğul əhalinin sayı 2005-ci ilin sonu ilə müqayisədə 1,4 dəfə artaraq 1 iyul 2020-ci il tarixə 249,6 min nəfərə çatmışdır.

Sahibkarlığın inkişafı, yeni istehsal və xidmət sahələrinin yaradılması əmək bazarında əhəmiyyətli dərəcədə müsbət dəyişiklik yaratmışdır. 2005-ci ildə muxtar respublikada dövlət sektorunda çalışanların sayı iqtisadiyyatda çalışanların ümumi sayının 23,6 faizini təşkil etdiyi halda, 2020-ci ilin yanvar-iyun aylarında bu göstərici 15,2 faiz səviyyəsində olmuşdur.

Cari ilin yanvar-iyun aylarında muxtar respublikada muzdla işləyənlərin sayı 96,5 min nəfər təşkil etmişdir ki, bunun da 37,9 min nəfəri dövlət, 58,6 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib. Muzdla işləyənlərin 6,8 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 17,4 faizi sənaye, 12,2 faizi tikinti, 19,5 faizi topdan və pərakəndə ticarət, 5,7 faizi nəqliyyat və anbar təsərrüfatı, 2,9 faizi yaşayışın təşkili və ictimai iaşə, 1,2 faizi informasiya və rabitə, 0,4 faizi maliyyə və sığorta fəaliyyəti, 0,7 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar, 1,2 faizi peşə, elmi və texniki fəaliyyət, 1,2 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 5,7 faizi dövlət idarəetməsi və icbari sosial təminat, 14,4 faizi təhsil, 5 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 3,7 faizi istirahət, əyləncə və incəsənət, 2 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2020-ci ilin yanvar-iyun aylarında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 524,8 manat təşkil etmişdir ki, bu da ölkənin digər iqtisadi rayonları ilə müqayisədə daha yüksəkdir.



Bir işçiyə hesablanmış ən yüksək orta aylıq əməkhaqqı göstəricisi maliyyə və sığorta fəaliyyəti, dövlət idarəetməsi və icbari sosial təminat, topdan və pərakəndə ticarət sahələrində çalışan işçilərdə qeydə alınmışdır.

Rəqabətədavamlı və ixracyönümlü məhsullar istehsal edən yeni müəssisələrin yaradılması və özünüməşğulluğun təmin edilməsi istiqamətində aparılan uğurlu siyasət əmək ehtiyatlarından səmərəli istifadəni, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsini daha da artırmaqdadır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Naxçıvanda ənənəvi məktəbli yarmarkalarına start verilib

*Naxçıvan Muxtar Respublikası Təhsil və İqtisadiyyat nazirliklərinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Naxçıvan şəhərindəki Mərkəzi bazarda yeni tədris ili ərəfəsində müəllim və şagirdlərin məktəbli ləvazimatlarına olan ehtiyaclarını daha asan, rahat və çevik şəkildə təmin etmək məqsədilə ənənəvi məktəbli yarmarkası təşkil olunub. Dünən yarmarkanın açılışı olub.*



Tədbirdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov çıxış edərək bildirib ki, muxtar respublikamızda bütün sahələr kimi, təhsil sahəsi də Ali Məclis Sədrinin hərtərəfli qayğısı ilə əhatə edilib. Mərkəzi bazarda keçirilən növbəti məktəbli yarmarkası da yüksək səviyyədə təşkil olunub. Yarmarkanın keçirilməsində məqsəd valideynlərin eyni ünvandan öz övladları üçün bütün lazımi məktəbli ləvazimatlarını əldə edə bilməsidir.

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat naziri Tapdıq Əliyev çıxışında vurğulayıb ki, son illərdə muxtar respublikanın bütün rayon və kəndlərində müəllim və şagirdlərin vahid geyim forması ilə təminatının daha da yaxşılaşdırılması daim diqqətdə saxlanılıb, geyim formalarının qiymət keyfiyyətinə nəzarət artırılıb. Yeni tədris ilinə hazırlıqla əlaqədar istehsal müəssisələrinin anbarlarında 8180 dəst məktəbli geyim forması ehtiyatı mövcuddur. Təhsil müəssisələrindən daxil olan sifarişlər nəzərə alınmaqla vahid geyim formalarının tikilişi davam etdirilir. Hazırda Naxçıvanda müəllim və şagirdlərin vahid geyim formalarına olan tələbatını ödəmək imkanına malik yüngül sənaye müəssisələri fəaliyyət göstərir. Bu gün 3-ü istehsal müəssisəsi olmaqla, 24 sahibkarlıq subyektinin iştirak etdiyi yarmarkada dərs ləvazimatları, məktəbli və idman formaları, məktəbli çantası, ayaqqabı və başqa ləvazimatlar alıcılara münasib qiymətlərlə təklif olunur.



Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov çıxış edərək təhsilə göstərilən dövlət qayğısından danışıb. Nazir qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə təhsilin inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir, yeni məktəblər inşa edilir, təhsil müəssisələrinin maddi texniki bazası möhkəmləndirilir, infrastrukturu yenilənir. Muxtar respublikada təhsil səviyyəsinin müasir standartlara uyğunlaşdırılması, müasir tədris şəraitinin yaradılması üçün atılan bütün addımlar şagirdlərin yüksək səviyyəli təhsil almasına geniş imkanlar açır. Bildirilib ki, şagirdlərin məktəbli geyimləri və dərs ləvazimatları ilə təminatı da diqqət mərkəzində saxlanılır, hər il ənənəvi məktəbli yarmarkaları təşkil olunur.

Nazir qeyd edib ki, muxtar respublika rəhbərinin tapşırığına əsasən bu gündən etibarən Naxçıvan şəhərində və rayonlarda məktəbli yarmarkaları fəaliyyətə başlayır. Belə yarmarkalar yeni tədris ili ərəfəsində şagirdlərin məktəbli geyimlərinə və dərs ləvazimatlarına olan tələbatlarının daha asan şəkildə təmin edilməsində mühüm rol oynayır.

Sonra yarmarkaya gələnlər satışa çıxarılan məhsullarla tanış olublar. Satış yerlərinin hər birində məhsulların çeşid zənginliyi, keyfiyyəti, satış qiymətlərinin əlverişli olması, xidmətin təşkili alıcılar tərəfindən razılıqla qarşılanıb.

Valideynlər belə yarmarkaların təşkil olunmasına görə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, məktəbli yarmarkası muxtar respublikanın bütün rayonlarında təşkil olunur və sentyabrın 14-dək davam edəcək.

## Ümumtəhsil müəssisələrinin informasiya sistemi üzrə onlayn seminar keçirilib

*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində şəhər və rayon Təhsil şöbələrinin baş məsləhətçiləri və təhsil müəssisələrinin Təhsilin idarəolunmasının məlumat sistemi üzrə əlaqələndiricilərinə onlayn seminar keçirilib.*

Seminarın keçirilməsində əsas məqsəd Ümumi Təhsil Müəssisələrinin İnformasiya Sistemi (UTİS) haqqında məlumatların müntəzəm yenilənməsi prosesində əlaqələndirici kadrların peşəkarlıq səviyyəsini artırmaqdır.

Seminarda nazirliyin sektor müdiri Məmməd Bayramov çıxış edərək UTİS proqramının tətbiqi, əsas xüsusiyyətləri və əhəmiyyəti haqqında ətraflı məlumat verib.

Bildirilib ki, bu proqramın tətbiqi nəticəsində ümumtəhsil məktəblərinin maddi bazası, sinif komplektləri, kitabxana fondları, laboratoriyaları, həmçinin şagird kontingenti, şagirdlərin təhsil müəssisələrinə qəbulu və yerdəyişməsi, təhsil haqqında dövlət sənədlərinin verilməsi, ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olanlar, müəllimlərin təhsili, cari iş fəaliyyəti və digər bu kimi məlumatları əhatə edən elektron məlumat bazası yaradılıb.

Proqramın düzgün və vaxtında işlənməsindən bəhs edən sektor müdiri qeyd edib ki, muxtar respublikada təhsilə göstərilən qayğının, yaradılan şəraitin nəticəsidir ki, bu gün istənilən ümumtəhsil məktəbində bu proqramdan səmərəli istifadə ən yüksək səviyyədədir. Bu proqram muxtar respublikamızda ötən tədris illərində tam və dolğun işlənərək respublikanın digər bölgələri ilə müqayisədə nümunəvi olub.

Qeyd edilib ki, ötən tədris ilindən Dövlət İmtahan Mərkəzinin "Şagird-məzun" sistemi ilə inteqrasiyası nəticəsində məzunlar haqqında məlumatlar avtomatik olaraq UTİS sisteminə köçürüldüyündən, ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olan məzunların sistemə işlənməsi qaydası sadələşdirilib.

Sonra seminar iştirakçılarına proqramla işləmə qaydaları haqqında məlumat verilib, iştirakçılara Ümumi Təhsil Müəssisələrinin İnformasiya Sistemi elektron formada paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

Yeniləşən kəndlərimiz

# Yuxarı Qışlaq kəndində bir gün



*Əzəmətli, yaşıl örpəyə bürünən dağları, min bir dərdin şəfası olan dərman bitkiləri, Batabatı, Zorbulağı ilə məşhur olan Şahbuzun istənilən guşəsinə nəzər salanda, ən ucqar dağ kəndlərimizdə belə, yaradılan şərait diqqəti cəlb edir. Müasir məktəb, tibb məntəqəsi, təbiət gözəllikləri ilə insan əlinin yaratdığı cazibədarlığın harmoniyasının yaşandığı kəndlərimiz insanlarda qürur, dövlətimizə minnətdarlıq hissini artırır. Belə yurd yerlərimizdən biri də Şahbuz rayonunun Yuxarı Qışlaq kəndidir.*

Elə biz də yurd yerində yaradılan şəraitlə tanış olmaq üçün yola düşürük. Yuxarı Qışlaq kəndi rayon mərkəzindən 20 kilometr məsafədə yerləşir.Yolboyu gözəl təbiət mənzərələrini seyr edə-edə ünvana çatırıq. Öyrənirik ki, 300 nəfərin yaşadığı bu kənd həm də uzunömürlülər diyarıdır. Kənd yerinin belə bir adəti var. Onlar bir-biri ilə o qədər yaxın, doğma münasibətdədirlər ki, yad birini görəndə mütləq kim olduğu ilə maraqlanır, onu qonaqlayıb əzizləməyə çalışırlar. Elə Allahverdi baba kimi. Kəndin bu 89 yaşlı sakini ilə görüşürük. Hal-əhval tutduqdan sonra uzaqdan diqqətimizi çəkən qayalarla maraqlandığımızı, kənd haqqında yazı yazmaq istədiyimizi görən baba: – Qızım, bax o gördüyün Papaqlı qayadır. Onun yanındakı qayanı isə “Dədə Qorqud qayası” adlandırırıq. Baxın, sanki başında papaq, ciynində əsa Dədə Qorqud əyləşib ordan kəndi seyr edir. Burdan yuxarıda, kəndin lap başında isə “Qara qaya” və “Ağ qaya” deyilən yerlər var. Onlar rənglərinə görə belə adlandırılıblar. Ağ qayadan Zor bulağın suyu aşıb-daşaraq gözəl bir şəlalə yaradıb ki, yaz-yay aylarında buranın adını eşidənlər mütləq görməyə gəlirlər. Kənd camaatı oranı “Ağ qaya şəlaləsi” adlandırır. Rayonun müxtəlif kəndlərindən, o cümlədən muxtar respublikamızın ayrı-ayrı bölgələrindən bu şəlalə haqqında eşidib-bilənlər onun ətrafında istirahət etməyə gəlirlər. Elə yeri gəlmişkən sizə “Quşlu qaya” və “Pirdaş” haqqında da



danışmaq istəyirəm. “Quşlu qaya” qartalların məskəni olduğuna görə adını da elə buradan götürüb. “Pirdaş” isə xalqımızın müxtəlif dini inancları ilə bağlı olan bir ocaqdır. İnsanlarımız qədim zamanlardan hansısa bir diləyinin gerçəkləşməsi üçün buraya üz tutar, nəzirlər deyərdilər. İnanca görə, bu ocağa üz tutanın niyyəti mütləq hasil olarmış. Elə buna görə də gördüyünüz o daşın adı “Pirdaş” olaraq qalıb.



Allahverdi baba deyir ki, bizim kəndimiz otlaq sahələri ilə də zəngindir. Belə ki, burada uzun müddət Xanlıqlar, Bayramölən, Abışı ayı basan obaları da mal-heyvanların saxlanılması üçün istifadə olunub.

Söhbətimizin bu yerində Sara xala da bizə qoşulur. Yaşı altmışı haqlayan Sara xala ömrünü bu dağlardan dərman bitkiləri toplamaqla keçirib. O deyir ki, kəndlərinin kövşənləri qantəpər, kəklikotu, solmazçiçək, dazotu, cacıq, çaşır kimi faydalı bitkilərlə zəngindir. Hər biri min bir dərdin dərmanı olan bu bitkiləri toplayır, onları qurudaraq qışa tədarük edirik. Qış aylarında isə əli buralara çatmayan qohum-qardaşlarımıza pay göndəririk. Bir də gördüyünüz bu dağlarımız üzərliyin məskənidir ki, onu yığıb, dəstə bağlayırıq. Kəndimizdə elə bir ev yoxdur ki, onun həyətindən üzərlik asılmasın. Bu da qədim zamanlardan üzərliklə bağlı müxtəlif inancların mövcud olması ilə əlaqədardır. Soy-kökünə bağlı olan xalqımız bu gün də o inanclara sahib çıxır. İnanca görə, üzərlik bədnəzərin düşmənidir. Əgər körpə evdə çox ağlayır, nasazlayırsa, onun nəzərə gəlməsindən qorxan böyüklər həmin an körpə uşağa üzərlik yandırırlar. Evinə yeni əşya alanda, toy evlərində, müxtəlif məclislərdə bədnəzərdən qorunmaq üçün üzərlik yandırırlar. Üzərlik yandıran adam bu sözləri təkrarlaya-təkrarlaya üzərliyi qorumaq istədiyi şəxs və ya əşya üzərində fırladır:

*Üzərliksən havasan,*
*Min bir dərdə davasan.*
*Üzərliyim çırtlasın,*
*Yaman gözlər pırtlasın.*

Səmimi söhbətinə görə Sona xalaya minnətdarlığımızı bildirib, haqqında xoş sözlər eşitdiyimiz ailə təsərrüfatçısı Fərman İbrahimovun mənzilinə üz tuturuq. Fərman dayı bildirir ki, uzun müddətdir, kənd təsərrüfatı ilə məşğul olub, artıq bir ildir ki, ailə təsərrüfaçısı kimi fəaliyyət göstərir. Təsərrüfatında mal-qara saxlamaqla məşğul olsa da, əsas gücünü arı ailələrinin saxlanılmasına verib. Belə ki, qırxa yaxın arı ailəsindən əldə etdiyi məhsulları təşkil olunan kənd təsərrüfatı məhsulları yarmarkalarına çıxarmaqla yanaşı, müxtəlif mağazalara da satışa verir.

Ailə təsərrüfatçısına işlərində uğurlar arzulayaraq Allahverdi babanın haqqında danışdığı şəlaləni görməyə tələsirik. Kəndin mərkəzindən uzaqlaşıb dağ yolu ilə irəlilədikcə hündürdən görünən kənd mənzərəsinə valeh



olmamaq mümkünsüzdür. Budur, çox keçmədən ünvana çatırıq. Şəlalələrin ən gözəl təbiət hadisələrindən biri olduğunu heç kim inkar edə bilməz. Başını aşağı salaraq hündürlükdən sanki yerə çırpılan büllur su, xüsusən də şəffaf qayalar və mənzərəli çəmənliklər fonunda, həqiqətən, sehrli mənzərədir. Öz görkəmi ilə kəndə xüsusi gözəllik verən “Ağ qaya şəlaləsi”nin yaxınlığında kənd sakinləri bura gələn qonaqların rahatlığı üçün istirahət yeri də yaradıblar.

Şəlalənin ətrafındakı ərazilərdə ot biçini ilə məşğul olan kənd sakinləri ilə də həmsöhbət oluruq. Zeyni baba deyir ki, ay qızım, heyvanlarımızın qış tədarükünü bu ərazilərdən toplayırıq. Kəndimizdə əkinçilik, bağçılıqla da məşğul olunur. Mən həyətyanı sahəmdə müxtəlif meyvə ağacları əkmişəm. Yetişdirdiyim məhsullardan doğmalarıma, yaxınlarıma sovqat göndərirəm.

*Kəndlərimizdə Zeyni baba kimi torpağın dilini bilən, ona tər axıdıb zər alan onlarla zəhmət adamı var. Onlar zəhmətə qatlaşaraq ən qiymətli nemət olan torpaqdan istədiklərini əldə edə bilirlər. Kəndli onu da yaxşı bilir ki, ancaq zəhməti və torpağın dilini anlayıb ona ürəkdən bağlanmaqla yaxşı yaşayışını təmin edər, bazarda bolluq və ucuzluq yaradılması işinə öz töhfəsini verər. Bunun özü də Vətənə, dövlətə xidmət növüdür.*

✍ **Telli MƏMMƏDOVA**

İstehsal müəssisələri

# Naxçıvan Avtomobil Zavodunun yeni məhsulu minivantipli ideal ailə avtomobilidir




*Muxtar respublikamızda sənayeləşmə istiqamətində həyata keçirilən dövlət siyasətinin uğurlu bəhrələrindən biri də müasir texnologiyaların tətbiqinə əsaslanan yeni istehsal sahələrinin yaradılmasıdır. Bu mənada, Naxçıvan Avtomobil Zavodu da innovativ sənaye imkanlarından yararlanan müəssisələrdən biridir. Hər il dünya avtomobil sənayesində baş verən yeniliklərlə ayaqlaşmağa çalışan bu müəssisə davamlı olaraq öz istehsalında həmin yeniliklərin tətbiqinə çalışır.*

2010-cu ildən əsası qoyulan, 2019-cu ilin aprel ayından isə “Cahan Holdinq” Kommersiya Şirkətləri İttifaqının tərkibinə daxil edilən Naxçıvan Avtomobil Zavodunda bu gün müasir dizayn, təhlükəsizlik və ekoloji normalara uyğun avtomobillər istehsal olunur. Bunun üçün müəssisədə yığım sexi, anbar, yük boşaldılması üçün platforma, sınaq yolu və sınaq avadanlıqları quraşdırılıb. Texnoloji proseslərə və texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunan müəssisənin illik istehsal gücü 4-5 min avtomobildir.

Naxçıvan Avtomobil Zavodu Azərbaycanda yeganə müəssisədir ki, avtomobillərin bütün hissələri burada yığılır. Bu da zavodda istənilən modeldə minik və yük avtomobillərinin istehsalına imkan verir. Zavodda həm mexaniki, həm də avtomatik sürət qutusu ilə işləyən avtomobillər istehsal edilir. Avtomobillər Nəzarət şöbəsindən keçdikdən sonra satış sahəsinə buraxılır. Zavod fəaliyyətə başlayan zaman ilkin mərhələdə istehsal prosesinin icraçıları və nəzarətçiləri xarici mütəxəssislər idisə, bu gün həmin vəzifələri yerli mütəxəssislər yerinə yetirirlər. Hazırda da müəssisədə möhürləmə, qaynaq və boyama sahələrinin yaradılması istiqamətində işlər davam etdirilir.

Naxçıvan Avtomobil Zavodunda istehsal olunan minik avtomobillərinin satışı da yüksək səviyyədə qurulub. Naxçıvan və Bakı şəhərlərində satış mərkəzi, texniki xidmət şöbələri və avtomobillərin ehtiyat hissələrinin satışı mağazaları yaradılıb. Şərur və Culfa rayonlarında isə avtomobillərin servis mərkəzləri fəaliyyət göstərir. Müəssisədə istehsal olunan avtomobillər ölkəmizin digər regionlarında da istehlakçılar tərəfindən rəğbətlə qarşılanır. Həmin avtomobillərdən muxtar respublikamızda, Bakı, Sumqayıt və Neftçala şəhərlərində taksi xidmətində istifadə olunur.

Hazırda “FAW” və “Lifan” markalı avtomobillərin istehsal olunduğu müəssisədə yeni modellərin yığılması diqqət mərkəzində saxlanılır, hər il yeni, büdcəyə uyğun avtomobillər istehsal edilir. Bu günlərdə Naxçıvan Avtomobil Zavodunun yeni modelləri sırasına bir avtomobil daha əlavə olunub. Belə ki, avqustun 3-dən burada yeni “Naz Lifan-L7” modellərinin yığımına başlanılıb. İki modifikasiyaya – 1,2 və 1,5 litr mühərrik həcminə malik olan bu avtomobillər minivantiplidir. Artıq zavodda 6 ədəd “LF 6431”, 3 ədəd isə “LF 6431b” modellərinin yığımı başa çatdırılıb.





Zavodun əməkdaşı Rəhim İsmayılovun verdiyi məlumata görə, 5 pilləli mexaniki sürət qutusu ilə təchiz olunan bu avtomobillər az yanacaq sərfiyyatı ilə diqqəti cəlb edir. 5 qapılı və 7 sərnişin tutumuna malik bu avtomobillər əsl ailə avtomobilidir desək, yanılmarıq. 14 düymlük alüminium disklər, bütün standartlara cavab verən təhlükəsizlik sistemləri, müasir işıqlarla təchiz olunmuş ön panel, 7 inçlik monitor, rahat oturacaqlar və geniş interyer bu avtomobilin ən yaxşı xüsusiyyətlərindəndir.

Yeni model təklif olunan qiymətinə görə də alına biləcək ideal ailə avtomobilidir. Qeyd edək ki, “Naz Lifan-L7” modeli 20 min manatdan başlayan qiymətlərlə təklif olunur. Həmçinin bu avtomobilləri ilkin ödənişi 25 faiz olmaqla, 48 aylıq kredit şərtləri ilə də əldə edərək ailə üzvləriniz, dostlarınızla birlikdə uzaq məsafələri rahatlıqla qət edə bilərsiniz.

Onu da əlavə edək ki, pandemiya ilə əlaqədar yaranmış çətinliklərə baxmayaraq, zavoda Çin Xalq Respublikasından avtomobil hissələrinin idxalı davam etdirilib, “Naz Lifan”ın istifadədə olan bütün modelləri üçün lazımi ehtiyat hissə bazası yaradılıb. Buradan həm yeni avtomobil almaq, həm də mövcud avtomobillərə uyğun keyfiyyətli ehtiyat hissələri əldə etmək olar.

Rəhim İsmayılov sonda onu da qeyd etdi ki, gələcəkdə “Lifan”ın yeni modellərinin buraxılışı da nəzərdə tutulur. Gələn ilin istehsal planında yeni “Lifan-X7” avtomobillərinin yığılması da var. Bununla yanaşı, növbəti ildən sürücülərə elektromobillər də təqdim ediləcək.

✍ **Gülcamal TAHİROVA**

# Smartkarttipli elektrik sayğacları quraşdırılır

Muxtar respublikada energetika sahəsində infrastrukturun daim yenilənməsi nəticəsində abonentlərə fasiləsiz elektrik enerjisi verilir, bu sahədə xidmət müasir tələblər səviyyəsində qurulur. Həmin tədbirlərin tərkib hissəsi kimi ötən il Babək Rayon Elektrik Şəbəkəsinin energetikləri tərəfindən rayon mərkəzi olan Babək şəhərində də smartkarttipli elektrik sayğacları quraşdırılıb. Hazırda bu işlər rayonun Şəkərabad kəndində davam etdirilir. Məlumat üçün deyək ki, avqust ayının ortalarından başlanan iş sürətlə aparılır və artıq 94 abonentin evində müasir sayğaclar quraşdırılıb. Bu sayğaclar bir çox üstünlüklərə malikdir. Belə ki, abonent istədiyi məbləğdə enerji sərfiyyatını ona verilmiş karta yükləyir və kartdakı enerji sərfiyyatını sayğacına köçürür. İstifadəçi sayğacda olan balans miqdarına da nəzarət edə bilir. Belə ki, balans miqdarı azaldığı zaman sayğacın ekranında “KREDİT Al” xəbərdarlıq mesajı görünür. Enerji kəsildiyi halda abonent kartından istifadə edərək kredit götürə bilir və sonrakı yükləmədə bu kredit onun balansından çıxılır. Kreditin bitməsi saat $17^{00}$-dan bir sonrakı gün saat $10^{00}$-a təsadüf edərsə, abonentin elektrik enerjisi kəsilməyəcəkdir.

Məlumat üçün deyək ki, gələcəkdə Babək rayonunun digər kəndlərində də smartkarttipli elektrik sayğaclarının quraşdırılması planlaşdırılır.

**Muxtar RZAZADƏ**

Dövlət proqramı icra olunur

# Naxçıvanda uşaqlara dövlət qayğısı göstərilir

***Naxçıvan Muxtar Respublikasında uşaqların fiziki inkişafının təmin olunması, xəstəliklərinin ilkin mərhələdə aşkar edilməsi məqsədilə profilaktik və müalicə-sağlamlaşdırıcı tədbirlərin həyata keçirilməsi xüsusi diqqətdə saxlanılır. Onların mütəmadi olaraq kompleks müayinələrdən keçirilməsi, müəyyən olunmuş xəstəliklərin vaxtında müalicə edilməsi uşaqlara göstərilən dövlət qayğısının bariz nümunəsidir.***



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın da məqsədi uşaqlara göstərilən tibbi xidmətlərin keyfiyyətini yüksəltməklə, onların arasında xəstələnmənin, sağlamlıq imkanlarının məhdudluğunun və ölüm səviyyəsinin azaldılmasından ibarətdir. Proqramın icrası istiqamətində işlər ikinci rübdə də davam etdirilmiş, icbari dispanserizasiya ilə əhatə olunmalı 5 min 739 uşaq qeydiyyata alınmış, 808 uşağın valideyninə elektron kart paylanmışdır.



Uşaqların erkən yaşda sağlamlıqlarının qorunmasını təmin etmək üçün müayinələr zamanı müəyyən edilmiş xəstəliklərin düzgün müalicəsinin təşkili xüsusi əhəmiyyət kəsb edir. Uşaqdakı xəstəliyin vaxtında aşkarlanması və onun müalicəyə cəlb edilməsi sağlamlıq göstəricilərinin erkən əldə edilməsinə səbəb olur. Dövlət proqramının icrası istiqamətində ikinci rübdə dispanserizasiya zamanı xəstəlik aşkar edilmiş 87 uşaq əlavə müayinə və müalicəyə cəlb edilmişdir.

Uşaq xəstəliklərinin müalicəsində reabilitasiya, tibbi bərpa prosedurları mühüm əhəmiyyətə malikdir. Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların sosial statusunun bərpa edilməsi və onların cəmiyyətə inteqrasiyası sahəsində ardıcıl tədbirlər həyata keçirilməkdədir. Dövlət proqramında da sağlamlıq imkanları məhdud uşaqlar üçün bərpa müalicəsinin təşkili və onların göndərişlərlə təmin edilməsi ilə bağlı tapşırıq müəyyən olunmuşdur. Tapşırığın icrası məqsədilə ikinci rübdə 26 sağlamlıq imkanı məhdud uşaq göndərişlə təmin edilmişdir.

Xəstəlik aşkar edilmiş uşaqlarla müalicə işinin təşkilində səhiyyə müəssisələrində çalışan tibb işçilərinin peşəkarlığı mühüm rol oynayır. Peşəkarlığın artırılmasına isə mütəmadi olaraq metodik tövsiyələrin hazırlanması və paylanması əsaslı təsir göstərir. Dövlət proqramının icrası məqsədilə ikinci rübdə uşaqların inkişafının monitorinqi üzrə 2 metodik vəsait hazırlanaraq ilkin səhiyyə xidməti müəssisələrində çalışan tibb işçilərinə paylanmışdır.

Uşaqların sağlamlığının qorunması üçün valideynlərin maarifləndirilməsi həyati əhəmiyyət daşıyan məsələlərdəndir. Dövlət proqramında da uşaqların dispanserizasiyaya cəlb edilməsi məqsədilə əhali arasında xəstəliklərin risk amillərinə dair müvafiq mövzular üzrə maarifləndirmə işinin həyata keçirilməsi ilə bağlı tapşırıq müəyyən edilmişdir. Tapşırığın icrası istiqamətində ikinci rübdə Səhiyyə Nazirliyinin əməkdaşları tərəfindən Naxçıvan Dövlət Televiziyası və Radiosunda 5 maarifləndirici çıxış olmuşdur.

Dövlət proqramında müəyyən edilmiş tapşırıqların vaxtında icra olunması muxtar respublikada uşaqların sağlamlığını xarakterizə edən göstəricilərdə müsbət dinamikanın əldə edilməsinə səbəb olur.

**"Şərq qapısı"**

# Birinci eşelon bölmələrimiz qışa tam hazırdır





*Əlahiddə Ümumqoşun Ordunun çətin dağlıq şəraitdə yerləşən və hər bir müdafiə mövqeyi alınmaz qalaya çevrilən bölmələrində müasir əsgəri-məişət kompleksləri tikilərək şəxsi heyətin istifadəsinə verilib. Yaradılan müasir şərait, heç şübhəsiz ki, dövlət qayğısının bəhrəsidir.*

Ön xətdə xidmət edən hərbi qulluqçular daha çox sayıqlığı və peşəkar döyüşçü keyfiyyətləri ilə seçilirlər. Hər biri yenilməz Vətən müdafiəçisi olan əsgərlərimiz ayıq-sayıq döyüş növbətçiliyi aparmaqla bərabər, ən çətin tapşırıqları da yerinə yetirməyə qadirdirlər.

Qartallar məkanı olan uca zirvələrdə qış daha sərt keçdiyindən birinci eşelon bölmələrimiz qışa hazırlıq tədbirləri çərçivəsində isti geyim, yanacaq, içməli su və ərzaqla tam təmin edilir. Hər cür şəraitə malik əsgəri-məişət komplekslərində isti geyim və keyfiyyətli ərzaqla təmin olunan əsgərlərimiz dövlət qayğısından və xalq-ordu birliyindən güc alaraq Vətənimizin müdafiəsində peşəkar döyüşçü kimi dayanırlar.

Hərbi qulluqçulara dövlət qayğısı ordu quruculuğu işinin tərkib hissəsidir. Hər bir hərbi qulluqçu da bu diqqət və etimadı yüksək döyüş hazırlığına yiyələnməklə doğrultmağa çalışır. Göründüyü kimi, muxtar respublikamızda dövlət-ordu-xalq birliyinin möhkəm təməli yaradılıb. Bütün bunların nəticəsidir ki, dövlətin və xalqın dəstəyini üzərində hiss edən şəxsi heyətin döyüş ruhu günbəgün artır, Vətənimiz etibarlı müdafiə olunur.

**Nəriman NƏCƏFOV**

# Aktivlərdən nümunəvi istifadə edənlərin fəaliyyəti stimullaşdırılır



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq 2020-ci ilin avqust ayında muxtar respublika üzrə, ümumilikdə, 23 sosial qayğıya ehtiyacı olan ailə müəyyənləşdirilib və 19 nəfərə yanında balası olan iribuynuzlu, 2 nəfərə yanında balası olan 10 baş xırdabuynuzlu heyvan, 1 nəfərə miniyerşumlayan aqreqat və 1 nəfərə isə çörək, kətə və digər unlu məmulatların hazırlanması üçün ləvazimatlar verilib. Proqrama cəlb olunan şəxslərdən 2 nəfərini gənclər təşkil edib.

Bununla əlaqədar keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev muxtar respublikada aztəminatlı ailələrə göstərilən dövlət qayğısı, onların məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlər barədə danışıb. Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası aztəminatlı ailələrin, cəzaçəkmə müəssisələrindən azad edilmiş, habelə sağlamlıq imkanları məhdud şəxslərin özünüməşğulluğunun təmin edilməsi istiqamətində sosial layihələrin icrasına əlverişli zəmin yaradıb.

Tədbir proqrama cəlb olunmuş sakinlərə verilən aktivlərlə bağlı sənədlərin təqdim edilməsi ilə başa çatdırılıb.

Qeyd edək ki, verilmiş aktivlərdən səmərəli şəkildə istifadənin stimullaşdırılması məqsədilə ötən dövr ərzində təsərrüfatlarını nümunəvi şəkildə inkişaf etdirən Şərur rayonu Arbatan kənd sakini Şəmil Qasımova arpa-buğdaqıran, Babək rayonu Naxışnərgiz kənd sakini Sədaqət İmaməliyevaya isə otdoğrayan aqreqatlar verilib. Nazirlik tərəfindən belə həvəsləndirici tədbirlərin gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***



Təhsil millətin gələcəyidir

# İşgüzar ingiliscə qloballaşan dünyaya inteqrasiya vasitəsidir

*Artıq ali məktəblərə növbəti qəbul imtahanları yekunlaşmaq üzrədir. Bu dəfə də qəbul planı üzrə seçim edəcək olan abituriyentlər universitetlərimizdəki yeni ixtisaslara böyük maraq göstərirlər. Muxtar respublikamızın ən böyük ali təhsil ocağı olan Naxçıvan Dövlət Universitetində yeni yaradılan İqtisadiyyat və idarəetmə fakültəsində yeni açılan İngiliscə iqtisadiyyat ixtisası da gənclər arasında böyük maraq doğurur. Şübhəsiz, dünya iqtisadiyyatında qlobal rəqabətin kəskinləşdiyi, ölkələr və firmalar arasında iqtisadi əlaqələrin dərinləşdiyi bir dövrdə işgüzar həyata daha yaxından inteqrasiya olunmaq üçün ingilis dilində iqtisadiyyat təhsili almaq istəyi də təsadüfi deyildir.*

Müasir dünyada ölkələrarası iqtisadi-mədəni əməkdaşlığın genişləndirilməsi üçün ümumi kommunikasiya vasitəsi olan ingilis dilindən geniş istifadə edilir. Bunun səbəblərindən biri texnologiyanın inkişafıdırsa, digər bir səbəb beynəlxalq diplomatik, biznes və turizm əlaqələrində bu dilin ortaq istifadə olunmasıdır. Bu gün dünyada rəsmi dili ingilis dili olan ölkələrdən başqa, ABŞ-dan Çinə, Norveçdən Braziliyaya qədər geniş coğrafiyada bütün işgüzar əlaqələrdə ingiliscə hamının başa düşdüyü dil kimi istifadə olunur. Yaxud İngiltərə dövləti dövrümüzün ən böyük ittifaqı olan Avropa Birliyindən çıxsa da, burada təmsil olunan İrlandiyanın rəsmi dili kimi ingilis dili ümumi ünsiyyət vasitəsi olaraq qalmaqdadır. Hətta son illərdə MDB ölkələri çərçivəsində keçirilən müxtəlif məzmunlu beynəlxalq tədbirlərdə də ingilis dilinin rus dilinin əvəzinə ortaq dil kimi istifadə olunmasını müşahidə etməkdəyik. Ona görə də müasir dövrün tələblərinə əsasən sahib olduğu ixtisasa görə hər bir mütəxəssis ona lazım olan səviyyədə ingilis dilini mənimsəməklə siyasət, iqtisadiyyat, menecment, beynəlxalq hüquq, beynəlxalq münasibat, bank, sığorta, tibb, turizm, jurnalistika, kompüter, aviasiya və avtomobil mühəndisliyi, aqrar elmlər və digər sahələrdə sərbəst olaraq dünyaya çıxış imkanı qazanır, internet resurslarından asanlıqla istifadə etməklə bərabər, işgüzar yazışmalar edir, keçirilən beynəlxalq konfrans, treninq, seminar və vebinarlara sıxılıb-çəkinmədən qatılır, çıxış və təqdimatlar edir, üzbəüz və onlayn diskussiyalarda fəallıq göstərirlər. Ölkəmizin müstəqillik əldə etməsi, iqtisadiyyatımızın sürətli inkişafı və müasir informasiya-kommunikasiya texnologiyalarının da həyatın bütün sahələrinə nüfuz etməsi ilə hər bir işgüzar Azərbaycan vətəndaşı üçün belə imkanlar yaranıb. Odur ki, gələcəkdə işgüzar ingilis dilinə sahib olan mütəxəssis yetişdirilməsi bütün dünyada olduğu kimi, ölkəmizdə də bir zərurətə çevrilib.

Bir dil bir insandır, – deyiblər. Buna görə də təhsil pillələrində yetişən hər bir gəncin gələcəkdəki potensialı onun ana dilindən başqa neçə dilə sahib olması ilə də ölçülür. Təsadüfi deyil ki, magistratura və doktorantura pillələrində dərəcə ala bilmək üçün xarici dildən keçmək mütləq mərhələ kimi qarşıya qoyulub. Bu mənada, İngiliscə iqtisadiyyat ixtisasını seçən gənclər üçün həyəcanlı məqamlardan biri onların orta məktəbdə qazandıqları leksik və qrammatik biliklərini tətbiqi olaraq zənginləşdirmək, dünyada baş verən mürəkkəb iqtisadi proseslərə birbaşa çıxış pəncərəsi əldə etmək şansıdır. Sirr deyil ki, bu gün ölkəmiz regional layihələrə liderlik edib, xarici iqtisadi əlaqələrdə ciddi tərəfdaş kimi öz mövqeyini möhkəmləndirdikcə bu işlərin öhdəsindən gələ biləcək müxtəlif kadrlara da ehtiyac yaranır. Muxtar respublikamızda elan olunmuş "İxrac ili"nin qazandırdığı təcrübə də onu deməyə imkan verir ki, bu gün qlobal miqyasda bazar konyunkturası real təhlil olunub, düzgün qərar verildikdə Naxçıvan məhsullarının dünyanın müxtəlif ölkələrə ixrac edilməsi imkanları da artır. Eləcə də əvvəlki illərin təcrübəsinə əsaslanaraq deyə bilərik ki, Naxçıvana səyahətə gəlmək istəyən əcnəbi turistlərin sayının qat-qat artırılması üçün bu sahədəki iqtisadçı mütəxəssislərin də işgüzar ingiliscəyə sahib olması mütləqdir.

İşgüzar ingiliscə tələbələrdə, sadəcə, kommunikasiya bacarığı yaratmır. Bazar iqtisadiyyatı şəraitində iqtisadi subyektlərin uğur qazanması üçün onların sahib olduqları insan resurslarının daimi olaraq özünü təkmilləşdirməsi və əldə olunmuş bacarıqlara əsaslanaraq tərəfdaşlarla sərfəli biznes sövdələşmələrinin aparılması tələb olunan zəruri şərtlərdəndir. Belə şərtlər, xüsusən müasir marketoloq, sığorta agenti, kredit mütəxəssisi, satış meneceri, turoperator, proqramçı, dizayner və digər cəlbedici ixtisaslar qarşısında daha çox ortaya qoyulur ki, bunlara sahib olmaqla, yüksək ödənişlə iş tapmaq və daha yaxşı karyera qurmaq müasir gənclərin xəyallarını həmişə məşğul edir. Xüsusən təmsil etdiyi şirkətin vacib işləri üçün xarici ölkələrə işgüzar səfərlərə yollanmaq, buradakı tədbirlərdə fəal iştirak etmək və etimadı doğrultmaq gənclər üçün həm dünyagörüşünü artırmaq, həm də karyera pillələrində daha inamla irəliləmək kimi çox cazibədardır.

Nəhayət, ingiliscə iqtisadiyyat təhsili ilə məşğul olmaq tələbələrimiz qədər bu ixtisas üzrə mühazirə və seminar məşğələləri aparacaq müəllimlər üçün də yeni həyəcandır. Qərb ölkələrinin aparıcı universitetləri ilə Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat ixtisası üzrə ikili diplom məsələləri istiqamətində əməkdaşlıq perspektivində yeni açılan İngiliscə iqtisadiyyat ixtisası daha fərqli bir akademik təcrübə şansıdır. İnanırıq ki, muxtar respublikamızın ali təhsil ocaqlarında bu sahədə qarşıya qoyulmuş vəzifələrin öhdəsindən gələ biləcək, xüsusən gənclərdən ibarət olan kadrlar onlara həvalə olunmuş tapşırıqlara məsuliyyətlə yanaşaraq təhsilimizə yeni uğur qazandıracaqlar.

**Əli CABBAROV**

*Orta əsrlərdə "meyvə cənnəti" adlandırılan Naxçıvan ta qədimdən dadlı-tamlı meyvələri ilə dünyada tanınıb. Naxçıvanın mühüm karvan yollarının, o cümlədən Böyük İpək yolunun üzərində yerləşməsi burada meyvəçiliyin inkişafına geniş imkanlar yaradıb. Diyarımızda yetişdirilən üzüm, tut, armud, nar, ərik, şaftalı və digər meyvə növləri öz ləziz dadı ilə zaman-zaman buraya gələn səyyahları da heyran edib.*

# Xalqımızın qədim məişət ənənələrindən biri: meyvəqurutma



Bağçılıq ənənələri ilə şöhrətlənən qədim diyarımızda meyvələrdən həm təzə halda, həm də qurudulmuş şəkildə istifadə olunub. Yayın bolluğunu qışın yavanlığı üçün qənimət bilən əhali yaz, yay və payız mövsümlərində tədarük etdiyi ərzaq məhsullarını qışda könül xoşluğu ilə nuş edib. Onu da qeyd edək ki, muxtar respublikamızda hər il hektarlarla meyvə bağları salınır, ətraf mühitə qayğı göstərilir. Həmçinin diyarımızda meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə qəbul olunmuş Dövlət proqramlarının uğurlu icrası xaricdən asılılığın aradan qaldırılmasına şərait yaradıb. Bərəkətli Naxçıvan torpağında yetişdirilən və hazırlanan meyvə quruları bu diyarı dünya miqyasında tanıdan vasitələrdəndir. Diyarımızda qurudulmuş alma, armud, ərik qaxı, gavalı, albuxara, alça, əncir, zoğal qurusu, üzümdən kişmiş, mövüc, şaftalıdan miyanpur, armuddan alana, cəvizdən hazırlanan sucuq öz dadı və ləzzəti ilə seçilməklə süfrələrimizə yaraşıq verir, həm də geniş şəkildə istifadə edilir.

Azərbaycanın bir çox bölgələrində istehsal olunsa da, ən məşhur və yüksəkkeyfiyyətli quru meyvələr Ordubada məxsusdur. Qürurvericidir ki, Naxçıvandan kənarda da "Ordubad quru meyvələri" başlığı altında fəaliyyət göstərən dükanlara tez-tez rast gəlinir. Qeyd edim ki, muxtar respublikamızın bu bölgəsində meyvəçiliyin tarixi çox qədimlərə gedib çıxır. Tarixi mənbələrə əsasən deyə bilərik ki, rus tədqiqatçısı V.Qriqoryev 1833-cü ildə qeyd edirdi ki, Ordubad əyalətində becərilən meyvələr bütün Zaqafqaziyada ən yaxşı meyvə hesab olunur. Meyvələrinin çeşidliyinə görə bağlar diyarı kimi də tanınan Ordubadda bu aqrar sahə illərboyu sakinlərin başlıca məşğuliyyət sahələrindən biri olub. Rayon təsərrüfatçılarının istehsal etdikləri bol, keyfiyyətli, həm də rəngarəng çeşidli təzə və quru meyvələr, şirələr Ordubadın şan-şöhrətini daha da artırıb. Bu gün də yerli və xarici bazarda Ordubad meyvələrinin həm təzəsinə, həm də qurudulmuşuna tələbat yüksəkdir.

Xalqımızın məişət mədəniyyətini özündə əks etdirən meyvəqurutma ənənələrini yaşadan ailə təsərrüfatçılarımızdan biri ilə – Vənənd kənd sakini Xaliq Mayılovla həmsöhbət oluruq. O deyir: – Atalarımız əbəs yerə deməyiblər ki, yayın bolluğu qışın yavanlığıdır. Meyvə bağımızdan topladığımız armud, ərik, almadan qax, şaftalı və armuddan alana, miyanpur, cəvizdən sucuq hazırlayırıq. Yazın ilk aylarından başlayaraq payızın axırlarına qədər meyvələri qurudur, həm qışa tədarük edir, həm də satış üçün ayırırıq. Həmçinin hazırladığımız məhsulları yaradılan şərait hesabına, muxtar respublikamızda təşkil edilən yarmarkalara, ailə təsərrüfatı məhsulları festivallarına çıxarırıq.

Müsahibim onu da bildirir ki, yaz fəslinin sonu və yayda yetişən ərik dadlı və sağlamlıq üçün də çox faydalı məhsuldur. Əriyin rayonumuzda 30-dan çox növü məlumdur. Bir vaxtlar Ordubad əriyini "çörək ağacı" adı ilə digər rayonlarımızda buğda ilə dəyişirdilər. Bu meyvədən qax, mürəbbə, kompot, cem hazırlayırıq. Həyətyanı sahəmizdə mövcud olan meyvə bağından abutalibi, cır əriyi, onların çəyirdəyini (dənəni) çıxarıb qururduruq. Ərik qurusuna (qax) tələbat yüksək olur, çünki ürəyin bir nömrəli dərmanı hesab edilir. Ondan qaysava da hazırlanır ki, bəzi bölgələrimizdə ərik qurusuna "qaysı" deyilməsi də bununla bağlıdır. Qurutduğumuz meyvələr içərisində tutun da özünəməxsus yeri vardır. Xüsusilə aclıq illərində bu meyvənin həm qurusu, həm də doşabı böyük nemət sayılırdı, çörəyi əvəz edirdi. İyun ayında yetişən tutu həyətdə günəşli yerdə parça və ya karton üzərində sərib qurudur, tam quruduqdan sonra saxlamaq üçün qablara yığırıq. Ağ tutun qurudulmuşu qışda süfrəmizdən əskik olmur, eyni zamanda alıcısı da çox olur. Gavalı və alçanın tam yetişməyənlərini duzlu suya salıb pörtlədir, daha sonra parça üzərinə sərir və quruduruq. Sarı rəngli gavalının qurusu daha çox qiymətləndirilir. Alça və tutdan həm də lavaşa hazırlayırıq. Alça lavaşası daha çox müxtəlif yeməklərin tərkibində istifadə olunsa da, tut lavaşası çərəz kimi çay süfrəsinə qoyulur. Hazırda cəviz, fındıq və badam kimi çəyirdəkli meyvələrin yetişən vaxtıdır. Ordubadın alana, miyanpur, sucuğunun isə şöhrəti hər yana yayılıb. Alananı, əsasən, şaftalının "Nazlı" növündən və armudun "Şəkəri" sortundan, miyanpuru isə ərik və nazlı şaftalıdan (dənədən ayrılan – Ordubadda dənədən ayrılan şaftalıya həm də "güşdü" deyilir) hazırlayırıq. Alana içinə cəviz ləpəsinə şəkər tozundan olan qarışım doldurulur, miyanpurun içinə isə ondan fərqli olaraq hazırlanmış qarışım deyil, cəviz ləpəsi qoyurlar. Xalq arasında miyanpurdan orqanizmdəki ümumi zəifliyin, qanazlığının qarşısını almaq üçün müalicə vasitəsi kimi istifadə edilir. Ordubad sucuğunun isə şöhrəti hər yerə yayılıb. Bu çərəz növünü hazırlamaq üçün yaş cəviz sapa düzülərək qurudulur. Əvvəlcədən bişirilmiş bulamacın içərisinə salınır, sonra qurutmaq üçün ipə asırlar. Qurudulmuş sucuğu şüşə qabın içərisində uzun müddət saxlamaq mümkündür. Bəzi kəndlərimizdə sucuğa "basdıq" da deyilir.

Müsahibim bildirir ki, meyvələr, əsasən, təbii və süni yolla qurudulur. Təbii üsula günəş şüaları düşən yerdə və kölgədə qurutma, süni üsulla isə müəyyən temperaturda və kimyəvi emal yolu ilə qurutma aiddir. Meyvəni günəş şüaları altında qurutmaq həm ekoloji cəhətdən təhlükəsizdir, həm də bu üsulla meyvələr tez quruyur. Lakin bunun mənfi cəhəti qurudulduqdan sonra meyvələrin bir qədər sərt olmasındadır. Kölgədə qurudulma prosesi zaman tələb etsə də, qurudulmuş meyvələr vitamin və mikroelementlərlə çox zəngin, həm də şirəli olur. Kimyəvi üsullarla qurudulmuş meyvələr isə uzun müddət saxlanılır, cəlbedici görünüşə və parlaq rəngə malik olur. Lakin bu üsul düzgün tətbiq edilmədikdə meyvələrdə toksiki kimyəvi, eləcə də boya maddələri ilə çirklənmələr baş verə bilir.

"Quru meyvə alarkən nələrə diqqət yetirmək lazımdır?" – sualına cavab olaraq müsahibim qeyd edir ki, əvvəlcə onun xarici görünüşünə diqqət etməlisən. Keyfiyyətli quru meyvə bərk deyil, elastik, üzəri parıltısız və təbii olur. Belə məhsulun üzərinin çox büzüşmüş olması onun düzgün qurudulmadığına işarədir. Keyfiyyətini yoxlamaq üçün onun qoxusuna və dadına da fikir vermək lazımdır. Düzgün qurudulmuş meyvələr yüngül və təbii qoxuya malik olur. Məhsuldan benzin, qaz iyi və yaxud meyvəyə yad olan qoxu hiss etsəniz, bilin ki, həmin məhsul keyfiyyətsiz və sağlamlıq üçün təhlükəlidir. Quru meyvələrin uzun müddət xarab olmaması üçün saxlanma yerlərində havanın rütubət və temperatur rejiminə nəzarət etməli, əsasən, nisbi rütubətliliyin az olduğu şəraitdə, kölgədə saxlanılmalıdır.

*Müsahibimin dediklərindən də belə nəticəyə gəlmək olar ki, Naxçıvanın dadlı və faydası ilə seçilən quru meyvələri ölkəmizdən kənarda da adla tanınır və onlara tələbat yüksəkdir. Onu da deyək ki, diyarımızın quru meyvələri həm də gənc və sağlam qalmaq istəyənlər üçün əvəzsiz qidadır.*

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

---

*2020-ci il "Könüllülər ili"dir*

# Könüllü olmaq insanın həm özünə, həm də cəmiyyətə yararlılığıdır

Könüllülük fəaliyyətinə ölkəmizdə, eləcə də muxtar respublikamızda geniş önəm və diqqət verilir. Bu gün könüllülük fəaliyyəti ilə məşğul olan gənclərin sayı çoxluq təşkil edir və daha da artmaqdadır. Onlar müxtəlif tədbirlərə qatılır, yaşlılara, tənha yaşayan insanlara, sağlamlıq imkanları məhdud şəxslərə, müharibə veteranlarına köməkliklər göstərir, ekologiyanın, təbiətin qorunmasında fəallıq nümayiş etdirirlər.

Ölkəmizdə bu fəaliyyət, belə desək, mentalitet qədim tarixlərə söykənir. Ulu ata-babalarımız əsrlərboyu bir-birinə yardımlar etmiş, ağır günlərdə öz qonşusundan, dostundan, yoldaşından köməyini əsirgəməmişdir. Qədim zamanlardan günümüzə kimi süzülüb gələn, artıq genetikamızın bir parçasına çevrilən bu ənənə aldığı siyasi dəstəklə də cəmiyyətimizdə, sosial həyatımızda öz yerini möhkəmləndirib.

Sosial həyatın müxtəlif sahələrini əhatə edən və asanlaşdıran bu ideya dövlətimizin başçısı cənab İlham Əliyevin 2020-ci ili "Könüllülər ili" elan etməsi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun müvafiq tapşırıqları ilə bu istiqamətə diqqətin artırılması könüllülük düşüncə və prinsiplərinin daha da möhkəmlənməsinə, sabitlənməsinə imkan verib. Nəticədə, muxtar respublika gəncləri müxtəlif könüllülük proqramlarına qoşulub. Bu, könüllü gənclərin müxtəlif layihələrdə iştirakına, onların asudə vaxtlarının səmərəli təşkilinə şərait yaradıb. Muxtar respublikada könüllü gənclərin fəaliyyətini onların özündən eşidib qələmə aldıq.



***Fidan Hüseynova:*** – 2020-ci ilin fevral ayından ekoloji könüllü kimi fəaliyyət göstərirəm. Təbiəti çox sevdiyim və ətraf mühiti qorumaq, bunu insanlara çatdırmaq imkanı əldə etmək üçün könüllü olmaq istədim. Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə təhsil alıram. Gələcəkdə bu sahə üzrə işləməyi düşünürəm, lakin bununla yanaşı, gənclərə dəstək olmaqla, sabaha inamla xalqına, dövlətinə layiqincə xidmət edən könüllülər yetişdirmək istəyirəm. Həmyaşıdlarıma isə demək istəyirəm ki, bir gün nələrsə bacarmaq üçün əvvəlcə hər hansı işi könüllü etməlidirlər ki, gələcəkdə uğur əldə edə bilsinlər. Xalqımızın belə gənclərə ehtiyacı var.



***Vaqif Cəfərli:*** – Könüllü dostlarım var idi. Onlar könüllülüklə bağlı mənə danışdılar, mən də yeni dostlar qazanmaq, eyni zamanda cəmiyyətə faydalı olmaq üçün Gənclər Fondunda sosial könüllülük fəaliyyətinə qoşuldum. Biz könüllü kimi muxtar respublikamızın müxtəlif bölgələrinə gedir, sosial qayğıya ehtiyacı olan, sağlamlıq imkanları məhdud vətəndaşlarımızla görüşür, onlara mənəvi dəstək göstəririk. Məncə, bu istək könüldən gəlməli, təmənnalı olmamalıdır. Könüllülük insanın həm özünə, həm də cəmiyyətə yararlı olması deməkdir. Könüllü olmaq gələcək iş təcrübəsinin də çoxluğuna, müasir dünyagörüşünün formalaşmasına, sosial həyatda fəallığa şərait yaradır. Mən bütün gənclərə könüllü olmağı məsləhət görürəm.

*Gənclərin bu istiqamətdə fəaliyyətləri həm xalqımız, həm də özləri üçün əhəmiyyətlidir. İstərdik ki, bütün gənclər özlərini bu xeyirxah, mühüm yolda – könüllülüyə gedən yolda sınasınlar və əminik ki, onların da gənclik uğurları buradan başlayacaq...*

**Vüsal ŞEYXOV**

---

# Azərbaycan Respublikasının Təhsil Nazirliyi

## *Naxçıvan Müəllimlər İnstitutu fəlsəfə doktoru hazırlığı üzrə 2020-ci il üçün doktorantura və dissertanturaya qəbul elan edir*

Naxçıvan Müəllimlər İnstitutunda fəlsəfə doktoru hazırlığı üzrə 2020-ci il üçün doktoranturaya və dissertanturaya qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2020-ci il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planları"na əsasən aşağıdakı qaydada aparılır.

**Fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya qəbul planı:**

***Büdcə hesabına, əyani təhsilalma forması:***

- Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası –1 yer;
- Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi – 1 yer;
- Pedaqoji psixologiya – 1 yer.

**Büdcə hesabına, qiyabi təhsilalma forması:**

- Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası – 1 yer;
- Müəllim hazırlığı və fəaliyyəti – 1 yer;
- Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi – 1 yer;
- Sosial pedaqogika – 1 yer;
- Pedaqoji psixologiya – 1 yer.

**Ödənişli əsaslarla, qiyabi təhsilalma forması:**

- Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası – 1 yer;
- Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi – 1 yer;
- Pedaqoji psixologiya – 1 yer.

**Fəlsəfə doktoru hazırlığı üzrə dissertanturaya qəbul planı:**

***Büdcə hesabına, qiyabi təhsilalma forması:***

- Müəllim hazırlığı və fəaliyyəti – 1 yer;
- Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi – 1 yer;
- Pedaqoji psixologiya – 1 yer.

***Ödənişli əsaslarla, qiyabi təhsilalma forması:***

- Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası – 1 yer;
- Sosial pedaqogika – 1 yer.

Doktoranturaya qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli Qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nın Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 13 noyabr tarixli 443 nömrəli Qərarı ilə təsdiqlənmiş yeni redaksiyasının tələbləri əsasında aparılır.

Doktoranturaya qəbul (habelə dissertanturaya təhkimolunma) üçün aşağıdakı sənədlər təqdim edilməlidir:

- *Naxçıvan Müəllimlər İnstitutunun rektorunun adına ərizə;*
- *kadrların şəxsi-qeydiyyat vərəqi;*
- *tərcümeyi-hal;*
- *2 ədəd fotoşəkil (3x 4 sm ölçüdə);*
- *iş yerindən xasiyyətnamə;*
- *iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*
- *çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;*
- *ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsili haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);*
- *xarici dil biliklərinə dair beynəlxalq sertifikat (əgər varsa);*
- *şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Sənədlərin qəbulu 25 sentyabr 2020-ci il tarixədək iş günlərində saat $9^{00}$-dan $17^{00}$-a kimi aparılır.

Əlavə məlumat almaq üçün Naxçıvan Müəllimlər İnstitutunun Elmi hissəsinə müraciət etmək olar.

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 2.***
***Naxçıvan Müəllimlər İnstitutu Elmi hissə (otaq № 208)***
***Əlaqə telefonu:(+994 36) 544-04-29***
***E-mail: elmihisse@nmi.edu.az***

---

## *İtmişdir*

Şərur rayonu, Yuxarı Daşarx kəndində yaşamış Hüseynəliyev Həmzə Hüseyn oğlunun adına verilmiş JN-181A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" və JN-143 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Yolçuyev Asiman Məhərrəm oğlunun adına olan hərbi vəsiqə itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-81-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Nömrəyə məsul:* Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 647